**2009-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkiləri ilə əlaqədar vətəndaş Abbaslı Tahir Allahverən oğlunun və digərlərinin 26 dekabr 2009-cu il tarixli 169 saylı müraciətinə baxılması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının**

**Q Ə R A R I**

2009-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkiləri ilə əlaqədar 59 saylı Salyan seçki dairəsi üzrə Salyan bələdiyyəsinin üzvlüyünə namizədlər Abbaslı Tahir Allahverən oğlu, Hacıyev Vaqif Razaq oğlu, Davudzadə İbrahim Aslan oğlu, Axund Mirzağa Aprel oğlu Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına ərizə ilə müraciət edərək, Salyan bələdiyyəsinə keçirilən seçkilər zamanı dairə və məntəqə seçki komissiyaları, yerli icra hakimiyyətinin nümayəndələri tərəfindən qanunsuz hərəkətlərin edilməsini bildirmiş və qanunla müəyyən edilmiş qaydada tədbirlər görülməsini xahiş etmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci və 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"a uyğun olaraq Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü tərəfindən araşdırılaraq bu barədə müvafiq rəy verilmiş və Mərkəzi Seçki Komissiyasının iclasında baxılmışdır.

Mərkəzi Seçki Komissiyasının müvafiq qərarı ilə müraciətin tam, hərtərəfli və obyektiv araşdırılıması üçün Seçki Məcəlləsinə uyğun olaraq araşdırma müddəti uzadılmışdır.

Araşdırma nəticəsində dairə və məntəqə seçki komissiyalarının üzvləri, seçilməmiş bələdiyyə üzvlüyünə namizədlər Tünzalə Əsədova, Paşa Nağıyev, Könül Əliyeva müşahidəçilər Səbinə Məmmədova, Aidə Səfərova, Əvəz Hüseynov, Şəfəq Misgərli, Zümrüd Mikayılova, Sərmayə Hüseynova, Yaqut Tahirova, Nifiti Nəcəfov, Nərminə Dadaşova, Balaxanım Soltanova, Arzu Hüseynova, Səbinə Rəcəbova, Raqiyyə Ələsgərova, Dildar Əliyeva, Sahib Nağıyev, Fəxriyyə Nəsibova, Aləmzər Sadıqova, Zabitə Səfərova, Xalidə Səkərova, Təranə Səfərovanın izahatlarından məlum olmuşdur ki, 59 saylı Salyan seçki dairəsi üzrə Salyan bələdiyyəsinə seçkilər Azərbaycan Respublikasının Seçki Məcəlləsinin tələbinə uyğun keçirilmiş, səslər müşahidəçilərin iştirakı ilə sayılmış, maraqlı şəxslərə protokolların surətləri verilmiş, DSK-nın yekun protokolu vaxtında tərtib olunmaqla 3-cü nüsxəsi məlumat lövhəsindən asılmış, arzu edən seçki prosesinin iştirakçılarına verilmişdir. Yerli icra hakimiyyəti işçilərinin seçkilərə müdaxilə etməsi toplanmış sübutlarda öz təsdiqini tapmamışdır.

Beləliklə də, müraciət əsassız hesab edilərək təmin edilməməlidir.

Yuxarıda göstərilənləri əsas götürərək, Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1, 2, 4, 6 və 7-ci bəndlərinə əsasən **q ə r a r a a l ı r :**

1. Vətəndaş Abbaslı Tahir Allahverən oğlunun və digərlərinin 26 dekabr 2009-cu il tarixli 169 saylı müraciəti əsassız olduğundan təmin edilməsin.

2. Qərar dərc edildiyi gündən qüvvəyə minir.

Sədr Məzahir Pənahov

| | |
|---|---|
| Katib | Natiq Məmmədov |
| Üzvlər | Fuad Cavadov |
| | Ramiz İbrahimov |
| | Validə Kazımova |
| | Qabil Orucov |
| | Tofiq Həsənov |
| | İlham Məmmədov |
| | Nizami Nadirov |
| | Azər Tağıyev |
| | Tamam Cəfərova |
| | Rövşən İsmayılov |
| | Oktay Hümbətli |